**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ ad. BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**ALİ MEHMET OĞLU DAĞISTAN**

# TÜRK BAĞLAMASI OXŞAR ÇALĞI ALƏTLƏRİ SIRASINDA

6213.01 – Musiqi sənəti

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** sənətşünaslıq doktoru, professor
**Səadət Abutalıb qızı Abdullayeva**

**Rəsmi opponentlər:** sənətşünaslıq doktoru, professor
**İlqar Cəmil oğlu İmamverdiyev**

sənətşünaslıq namizədi, dosent
**Ülkər Kamal qızı Talıbzadə**

**Aparıcı təşkilat:** Azərbaycan Milli Konservatoriyası, "Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrası

Müdafiə _15_____may__________2013-cü ildə saat ____________ Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____aprel__________2013-cü ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
sənətşünaslıq namizədi, professor **Ş.H.HƏSƏNOVA**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Musiqi cəmiyyətin ortaq səsi, duyğusu, düşüncəsi və inanc sisteminin göstəricisi, milləti, mədəniyyəti yaradan, keçmiş tarixini, mədəniyyətini gələcəyə çatdıran ən əhəmiyyətli faktlardan biridir. Bu mənada, bağlama musiqi aləti Türk xalqının musiqi mədəniyyətini keçmişdən günümüzə çatdıran xalq çalğı alətləri sırasında önəmli yer tutur. Bağlama - Türk xalq musiqi mədəniyyətini təmsil edə biləcək səviyyədə inkişaf etmiş və ümum qəbul olunmuş xalq çalğı alətidir.

Tarixi mənşəyi Asiyada qopuza söykənən bağlama musiqi aləti, Anadoluya türklərin köçləriylə birlikdə gətiriləcək, bir çox zəngin və əhəmiyyətli mədəniyyətlərə yurd olmuş Anadoluda digər mədəniyyət qalıqlarıyla qarşılıqlı əlaqədə, təməl xüsusiyyətlərini qoruyaraq inkişaf etmiş və bütün Anadolu xalqının çalğı aləti olmuşdur.

Bağlama - Türk coğrafiyası ilə Anadolu arasındakı mədəni və tarixi əlaqələrin bir göstəricisi və eyni zamanda, əgər dərindən araşdırılarsa, mövcud tarixi əlaqələri ümumi cəhətlərə çevirə biləcək qüdrətli bir çalğı alətidir. Bağlamanı anlamaq - Türk tarixini və mədəniyyətini doğru anlamaq deməkdir. Bu mövzu yalnız Anadolunu deyil, bütün Türk dünyasını da yaxından maraqlandıran bir mövzudur.

Anadolu xalqı bağlama ilə ibadət edər, döyüşə gedər, haqsızlığa, istismara qarşı mübarizədə əlində olar. Sevdasını, hirsini, üsyanını bağlama ilə izah edər. İslamiyyətdə haram sayıldığı bir dövrdə xalq arasında bağlama üçün "telli Quran" deyilərək müqəddəs hesab olunmuşdur. Öz qurduğu dövlətin belə xor baxdığı, yox saydığı bağlamanı xalq bu günlərə gətirmişdir.

Lakin bağlamanı tarix boyu bu vəziyyətə gətirən səbəblər araşdırılmamışdır, onun sosioloji mahiyyətinə toxunulmamışdır. Bağlama musiqi aləti ilə bağlı bu zamana qədər aparılan tədqiqatlarda bağlamanın xalqın həyatındakı və mənəviyyatındakı rolu işıqlandırılmamışdır.

"Bir millət, iki dövlət" dediyimiz Azərbaycan və Türkiyənin xalq çalğı alətləri - bağlama ilə kökü eyni olan aşıq sazının müqayisəsi edilməmişdir. Bu səbəbdən biz bağlama aləti ilə bağlı araşdırmalara müraciət etmişik ki, bu da mövzunun aktuallığını şərtləndirir.

**Mövzunun işlənmə dərəcəsi.** Türkiyədə bağlama aləti ilə əlaqədar araşdırmalar Türkiyə Respublikasının yarandığı dövrdən sonra başlamışdır. Respublika rejimi idarəçilərinin, başda Atatürk olmaqla, milliləşmə,

milli mədəniyyətin qabarıq üzə çıxarılması və xarici mədəniyyət ünsürlərinin təmizlənməsi baxımından yanaşma geniş vüsət almışdır. Bu məqsəddən irəli gələrək, Türk xalq musiqisi və bağlama aləti ilk dəfə Anadolu Türk musiqisində, təxminən 1000 illik tarixə malik bir alət kimi ictimaiyyət tərəfindən qəbul edilmişdir. Ancaq ortada bu sahə ilə əlaqədar məlumat, xüsusilə yazılı qaynaqlar çox azdır və bu məlumatları dəyərləndirmək üçün musiqi materialı yox dərəcəsindədir.

Bağlama alətinin araşdırılmasına həsr olunmuş tədqiqatlardan ilk öncə, türk musiqişünaslarından Mahmud Ragıp Gazimihalın (1900-1961) "Ülkelerde Qopuz ve Təzənəli Sazlarımız" kitabını (1975) qeyd edə bilərik. Daha sonra Bahattin Ögelin (1913-1989) "Türk Kültür Tarihine Giriş" adlı 9 cilddən ibarət 1987-ci ildə çap olunmuş çox geniş miqyaslı tədqiqatını göstərmək olar. Bu iki iş həmin mövzu ilə maraqlanan bir çox araşdırmaçıya ilham qaynağı və yol göstəricisi olmuşdur. Eyni zamanda, yalnız Türkiyədə deyil, bu mövzu ilə maraqlanan xaricdəki tədqiqatçıların da müraciət etdikləri mənbəyə çevrilmişdir.

1975-ci ildən qurulmağa başlayan Türk Musiqisi Dövlət Konservatoriyasında və 1980-ci ildən sonra təhsil müəssisələrində Türk xalq musiqisinin və bağlama alətinin öz yerini alması ilə akademik mənada görülən işlər sürətlənmişdir.

Bağlamanın standart quruluşa və ölçülərə qovuşmasını qarşıya məqsəd qoyan İstanbul Türk Universitetinin müəllimi, Çalğı İstehsal Hissəsinə başçılıq edən Cəfər Açının "Enstrüman Bilimi" (1994) - alət texnikası ilə bağlı, orqanoloji tədqiqatı əhəmiyyətlidir. Yenə bu mövzuda İstanbul Türk Universitetinin müəllimlərindən və eyni zamanda bağlama sənətçisi və tədqiqatçısı Erol Parlakın "Türkiye'de el ile Bağlama Çalma Geleneği ve Çalış Teknikleri" (2000) kitabında olduqca əhatəli şəkildə, təfərrüatlı açıqlama verilmişdir.

Bağlama alətinin tarixi, istehsalı, çalğı texnikası, həmçinin, bu alətə elmi baxışlarla əlaqədar türk musiqişünaslığında bir çox məqalə dərc olunmuşdur. Ancaq bunların bir çoxu o qədər də geniş olmayan araşdırma və məlumatlanma nəticəsində yazılmış, problemin məğzini işıqlandıran, onun həllinə aparan tədqiqatlar deyil, əksinə, düzgün məlumatları təhrif edən, tədqiqatları səhv yola yönəldən yazılar olduqlarından bu araşdırmada onlara ciddi diqqət verilməmişdir.

Bağlama ifaçılığının tədrisi ilə bağlı hələ əsl mənada metodik əsaslara söykənən təhsil kursu meydana gəlməmişdir. "Bağlama metodu" adı altında metodik vəsaitlər yazılmış, ancaq bunlar ümumi qəbul olunmayaraq,

tədrisə daxil edilməmiş, fərdi ifaçılıq üslubuna aid tövsiyələr kimi qalmışdır. Bağlama alətinin tədrisinin metodik əsaslarla işlənilməsi və bunun tədris prosesinə daxil edilməsi üçün bağlamanın çalğı aləti olaraq həll edilməsi lazım olan bir çox problemlər vardır. Bu problemlərdən ən əsası - akkord, ölçü, rəftar problemləri ilə bağlıdır.

Bütün bunlara baxmayaraq, "Bağlama metodu" adı altında çıxan və müəyyən dərəcədə bağlama çalğı texnikasına həsr olunmuş işlərdən aşağıdakıları göstərə bilərik: Günay Taptık - "Bağlama Büyük Metod" (Ankara, 1971), Şemsi Yastıman – "Sazdan Düşenler" (İstanbul, 1959), Hamit Çine – "Üçtelli Bağlama Metodu" (İzmir, 1992), İrfan Kurt – "Bağlamada Düzen ve Pozisyon" (İstanbul, 1989), Erol Parlak – "Türkiye'de El İle (Şelpe) Bağlama Çalma Geleneği" (Ankara, 2000), Savaş Ekici – "Bağlama Eğitimi Yöntem ve Teknikleri" (Gaziantep, 2000), Arif Sağ, Erdal Erzincan – "Bağlama Metodu" (İstanbul, 2009).

Azərbaycan aşıq sazı mövzusunda tədqiqatlar aparmış sənətşünaslıq doktorları, professorlar Tariyel Məmmədov, Babək Qurbanov və İlqar İmamverdiyevdən çox əhəmiyyətli məlumatlar alınmışdır.

Bütün aparılan tədqiqatları ümumiləşdirərək, qeyd etməliyik ki, bağlamaya davamlı olaraq, yalnız çalğı aləti kimi baxılmış, onun mənəvi-etik xüsusiyyəti diqqətdən kənarda qalmış, Anadolu xalqı üçün bağlamanın nə mənanı verdiyi kifayət qədər araşdırılıb üzə çıxarılmamışdır. Musiqişünaslıqda bu sahədə müəyyən bir boşluq var ki, onların aradan qaldırılması üçün tədqiqatların aparılması vacibdir. Təqdim etdiyimiz dissertasiya bu boşluğun doldurulması yolunda atılmış bir addımdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada musiqişünaslıqda ilk dəfə olaraq, Anadoluda itməkdə olan bağlama növlərinin tədqiqi və bir mədəniyyət xəzinəsi kimi əhəmiyyətinin və dəyərinin müəyyənləşdirilməsi həyata keçirilmişdir.

100-150 illik istifadə edilmiş, bağlamaların şəhərləşmə dövrlərindən əvvəlki nümunələri tapılmış və ənənəvi bağlama forması baxımından qiymətləndirilmişdir.

İlk dəfə olaraq, bağlamanın tarix boyu keçdiyi təkamül yolu öyrənilmiş, onun sosioloji mahiyyəti açıqlanmış, bağlama musiqi alətinin xalqın həyatındakı və mənəviyyatındakı rolu araşdırılmışdır.

Eyni kökdən olan bağlama ilə Azərbaycan aşıq sazının müqayisəsinin aparılması da işin elmi yeniliyi kimi qeyd olunmalıdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın əsas məqsədi bağlamanın Asiyadan - Anadoluya, qopuzdan - bağlamaya qədər olan tarixi in-

kişaf yolunun araşdırılmasından və elmi dəlillərin ortaya qoyulmasından, bu tarixi müddətdə meydana gələn siyasi, dini və mədəni hadisələrin bağlamaya təsirlərinin sosioloji baxımdan üzə çıxarılmasından ibarətdir.

Bu məqsəddən irəli gələrək, aşağıdakı **vəzifələr** nəzərdə tutulur:

- Qopuz olaraq Anadoluya gələn bağlamanın ikitelli vəziyyətdən üçtelli mərhələyə keçdiyi dövrləri göstərən və sürətlə Anadolunun ucqar guşələrində tapılan nümunələrini üzə çıxarmaq və qorumaq;
- Qopuzdan bağlamaya olan keçid eyni zamanda Asiyadan Anadoluya Türk tarixi müddətinin konsepsiyasının araşdırılması;
- Bağlamanı tarixi köklərindən qopardaraq Türk mədəniyyətini kiçik göstərmək məqsədində olan bəzi dairələrə lazımlı elmi cavab verilməsi;
- Kökləri, sələfləri eyni olan Azərbaycan xalqı ilə Anadolu Türk xalqının sazları – aşıq sazı və bağlamanın müqayisəsi;
- Belə müqayisə iki xalqın mənəvi, mədəni və elmi birliyinin daha da artmasına rəvac verərək yeni araşdırmalar üçün ilham qaynağı ola biləcək.

**Tədqiqatın metodu və metodologiyası.** Tədqiqatda müqayisəli nəzəri təhlil metodu əsas götürülmüşdür. Eyni zamanda, musiqişünaslıq və etnomusiqişünaslığın ümumi nəzəri prinsipləri, görkəmli Azərbaycan, Türk, eləcə də xarici musiqişünaslarının tədqiqatlarında işlənmiş elmi nəzəri konsepsiyalar dissertasiyanın metodoloji bazasını təşkil edir.

Bağlamanı doğru anlamaq üçün bağlama musiqi alətini Anadoluya daşıyan, qoruyan və yaşadan xalqın tarixini də yaxşı bilmək lazımdır. Asiyadan Anadoluya yüz illərlə sürən bir köçün müddəti və nəticələrini də yaxşı anlamaq lazımdır.

Bu müddətdə, qarşılaşılan yeni həyat formaları, dillər, inanc sistemləri, mədəniyyətlər necə təsir etmiş, bu qədər qarşılaşdırılan faktlar qarşısında necə qorunmuş, var olmuş və bütün bunların içində bağlama hansı yeri tutmuşdur? Məhz bütün bu faktlara cavab verə bilmək, bu müddətin tarixini yaxşı öyrənməkdən keçir. Bu anlayışla, araşdırma tarixi və musiqi baxımından iki istiqamətdə davam etdirilmişdir. Bu iki sahədə də yazılı qaynaqları araşdırmağa çalışmış və bağlamanın çalğı aləti olaraq tarixi və mədəni quruluşun içindəki mövqeyini açıqlamağa çalışmışıq.

Bu mövzu ilə əlaqədar, onun öyrənilməsinə əmək sərf etmiş və yetkin mövqeyə gəlmiş şəxslərlə bir-bir görüşmüş, fikirlərindən faydalanmışıq.

Türk xalq musiqisində bir dönüş nöqtəsi təşkil edən TRT-nin "Yurddan Səslər" birliyində İstanbul Texniki Universitetində təhsil işçisi olaraq çalışmış və saysız türküləri repertuara salmış Yücel Paşmakçı və eyni mühitdən olan qiymətli ustad Hamdi Özbayla, bağlama sənətçiliyi və bir

çox təşkilatlarda bağlama müəllimliyi etmiş və tədqiqatçı istiqaməti ilə də bilinən qiymətli hocam İhsan Öztürk ilə, bağlama deyilincə ilk ağla gələn Arif Sağla görüşmüş, onun məlumat və təcrübələrindən dəyərlənmişik. Yeni dövrün tanınmış bağlama icraçısı, araşdırmaçı və İstanbul Texniki Universitetinin əməkdaşı Erol Parlakla, eyni dövr bağlama sənətçisi və təlimçilərindən Erdal Erzincanla görüşmüş və fikirlərindən faydalanmışıq.

Bağlama çalma texnikaları və bağlama formaları mövzusunda məktəb vəziyyətinə gəlmiş və icra şəkilləri yerində müşahidə edilmiş və qiymətləndirilmişdir. Bu istiqamətdə Türkmən Yörük bölgəsi olan və üçtelli bağlamanın istifadə edildiyi Muğla, Fəthiyə, Burdur bölgələrinə, Bozlak bölgəsi olaraq bilinən və Abdal tərzinin məşhur olduğu Kırşehirə, Taxtaçı Türkmənlərin olduğu Silifke və Mutun kəndlərinə, Karacaoğlanın diyarı Osmaniye, Düziçi, Kadirli, Kozan, Saimbeyli, Tufanbeyliye, Güneydoğu Anadoluda Alevi yurddaşların olduğu və Dede sazı, Ruzba adlı bağlamaların tapıldığı Maraş (Pazarcıq), Malatya (Arguvan) bölgələrinə gedilmiş və yerində araşdırma aparılmışdır.

**Tədqiqatın obyekti -** bağlama çalğı aləti ilə bağlıdır. Bağlamanın Asiyadan Anadoluya qədər uzanan tarixi inkişafı, keçdiyi mərhələlər, forma dəyişiklikləri, Anadoluda mövcud olan bağlama növləri və adları, Azərbaycan aşıq sazıyla müqayisə tədqiqatın obyektini təşkil edir.

**Tədqiqatın predmeti** bağlama çalğı alətinin quruluşu, köklənməsi, ifaçılıq üsulları, tarixi inkişafı boyu meydana gələn növlərinin öyrənilməsindən ibarətdir.

**Dissertasiyanın materialı.** Bizim tədqiqatımız çoxlu faktiki materialın cəlb olunmasını tələb edir. Araşdırmada xeyli miqdarda Türk mədəniyyət tarixi üzrə elmi ədəbiyyat, həmçinin, müxtəlif konfranslar və elmi seminarların materialları nəzərdən keçirilib. Dissertasiya işindəki faktik material Türkiyədə çap olunmuş məcmuələrdə yer almış bağlama havalarının not yazılarından ibarətdir. Bunlar müxtəlif illərdə ayrı-ayrı tədqiqatçılar tərəfindən peşəkar ifaçıların səsyazılarından nota salınmışdır.

**Dissertasiyanın təcrübi əhəmiyyəti.** Dissertasiyanın materiallarından Türk musiqisi ilə Şərq regionu xalqlarının musiqi mədəniyyətinin qarşılıqlı əlaqələrinə yönəlmiş işlərdə istifadə etmək olar. Dissertasiyanın əsas müddəalarından Azərbaycanın və Türkiyənin incəsənət yönümlü ali məktəblərində və bu sahədə aparılan elmi – tədqiqat işlərində istifadə oluna bilər. Eyni zamanda, Ali musiqi məktəblərində "Türk xalqlarının şifahi ənənəli musiqisi", "Aşıq yaradıcılığı" fənlərinin tədrisində dissertasiyanın materiallarından əyani vəsait kimi faydalanmaq olar. Bizim tədqi-

qatımız etnoqraflar, tarixçilər, türkoloqlar üçün də maraqlı ola bilər, çünki bu araşdırmada bilavasitə türk xalqının soy-kökü də aşkarlanır.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Bakı Musiqi Akademiyasının "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasında müzakirə olunmuşdur. Dissertasiyanın əsas məzmunu, onun ayrı-ayrı müddəaları müəllifin çap olunmuş məqalə və tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

**Dissertasiyanın I fəsli "Bağlamanın tarixi və qopuzdan bağlamaya qədər olan inkişaf yolu"** adlanır. Bağlama və bağlamaya bənzər xalq çalğı alətlərinin tapıldığı coğrafi əraziyə nəzər saldıqda, qarşımızda türklərin yaşadığı və tarixin müxtəlif dövrlərində türklərin təsiri olduğu çox geniş bir coğrafi məkan açılır. Bu coğrafi məkan Asiyanın böyük bir hissəsini, Anadolunu və Balkanları əhatə edir ki, bu da Türkiyənin və türklərin uzun illər başçılıq etdiyi və təsir altına aldığı sahələrdir.

Anadolu türklərinin Asiyadan gəldiyi hamıya məlum olan və hər kəs tərəfindən qəbul olunan bir gerçəklikdir. Bu səbəbdən bağlamanın tarixi, eyni zamanda həm də Anadolu türklərinin tarixidir. Bağlamanın köklərinə çata bilmək, tarix boyu dəyişməsini və inkişafını başa düşmək yalnız Anadolu türklərinin tarixini anlamaqla mümkündür. Anadolu türklərinin, Anadoluya köç etmədən əvvəlki yaşadıqları Asiya dövrünün musiqi mədəniyyətinə baxdıqda da qarşımıza qopuz alətinin adı çıxır. Bu səbəblə bağlamanın tarixini, mədəni-ictimai mahiyyətini anlaya bilmək üçün qopuz musiqi alətini eyni dərəcədə anlamaq və bilmək lazımdır.

Qopuz adı Asiya xalqlarının inanc sistemi olan şamanizmin başçısı, icra edicisi olan şamanların dini mərasimlərdə etdikləri dualarda da özünü göstərir. Bütün bunlardan aydın olduğu kimi, qopuz - şaman, kam, baksı kimi adlarla xatırlanan və dini ayinləri idarə edən şəxslərin istifadə etdiyi və bunun müşayiətilə şeirlər söylədiyi, cəmiyyətə nəsihət verdiyi müqəddəs bir çalğı alətidir. Eyni zamanda, bu Şaman mərasimlərinin ən əhəmiyyətli parçası olan qopuzu, böyük tədqiqatçı Bahattin Ögel "müalicə edən, ruhları sakitləşdirən, iradələrə güc təsiri verən, eyni zamanda cəmiyyətdə

birlik yaradan, ictimai bir alətdir" kimi xarakterizə etmişdir.[1]

Qopuz adı daha sonra, sıx bir şəkildə Dədə Qorqud hekayələrində öz əksini tapmış və daha da yüksək bir mövqedə tərənnüm olunmuşdur. Dədə Qorqud hekayələrində ("Oğuznamə") ortaq mövzu Oğuz türkləri ilə bağlıdır. Anadolu Türklərinin atası olan bu Oğuzlar və onların həyatını izah edən Dədə Qorqud buna görə çox əhəmiyyətlidir. Burada qopuzdan - qolça qopuz, quruluca qopuz kimi adlarla bəhs edilməsi, bunların fərqli qopuzlar olduğunu deyil, ölçüsü və vəziyyəti haqqında məlumat verən deyimlər olduğunu qeyd etmək lazımdır.

Anadolu türklərinin sələflərinin, böyük əksəriyyət olaraq Oğuzlardan meydana gəldiyi hər kəs tərəfindən qəbul olunan bir həqiqət kimi önə çıxır. Bununla bağlı olaraq qopuzun da Anadoluya Oğuzlarla bərabər gəlməsi çox təbii bir proses kimi nəzərdən keçirilir. Qopuz adının Anadoluda XV əsrə qədər istifadə edildiyi və daha sonralar yeni forma və adlarla varlığını davam etdirdiyi üzə çıxır.

Ancaq XVI əsrdən sonra, Osmanlı dövlətində öz sənət anlayışına uyğun, fars və ərəb-İslam sənət mədəniyyətinə oxşar bir şəkildə, musiqi mədəniyyətinin təkmilləşdirilməsi ilə bağlı işlər genişlənir və qopuz adına yeni terminologiyada yer verilmir. Xalq mədəniyyətində özünəməxsus yeri olan qopuz aləti, bu dövrdən artıq saz adıyla xatırlanmağa başlanmışdır. Anadoluda saz alətinin kifayət qədər geniş yayıldığını və xalqın məişətinə daxil olduğunu izləyə bilərik.

Lakin saz termini farsca sadəcə çalğı aləti mənasında tətbiq edilirsə, türkcə, musiqi aləti mənası ilə yanaşı, yalnız çalğı alətinin (bağlamanın) adı olaraq istifadə edilir və başqa terminlərin də kökünə çevrilir. Qopuzdan saz termininə keçid zamanı olduğu kimi, bənzər səbəblərlə ozan adı yerinə aşıq adı istifadə edilməyə başlanmış, ozan-qopuz söz birləşməsi yerinə saz-aşıq adları istifadə edilərək, aşıqlıq ənənəsi ozanlıq ənənəsinin yerinə keçmişdir.

Bağlama – XVII əsrdən etibarən sazla birlikdə, ən çox istifadə edilən musiqi aləti olmuşdur. Bağlama adı bəzən saz adının yerinə, bəzən yalnız müəyyən ölçüdə olan telli təzənəli xalq çalğı aləti üçün, bəzən də bu çalğılarda istifadə edilən bir nizam (akkord) formasını izah etməkdə istifadə edilmişdir. Son mərhələdə bağlama - telli təzənəli bütün Türk xalq çalğı alətlərinin ümumi adı olmuşdur.

[1] Ögel B. Türk Kültür Tarihine Giriş 9, Kültür Bakanlığı, Ankara, 1991. s.5.

Türk şeir, türkü və deyimlərində bağlama adına tez-tez rast gəlinir. "Bağlamam var üç telli" Muğla türküsü, ‘'Bağlamam qızıl teldən" Güresun türküsü, ‘'Bağlamam pərdə pərdə" Giresun türküsü, "Bağlamanın düyünü" Orta Anadolu türküsü, "Bağlamasını çalar gəlir əlləri" Muğla türküsü, "Dolama dolamayı, gətirin bağlamayı" Kipr türküsü bu qəbildəndir. Göründüyü kimi, bu türkülərdə də bağlama adı Anadolunun hər tərəfində türkülərə daxil olmuş bir addır.

Bağlama adının saz yerinə istifadə edilməsi olduqca önəmli bir məsələdir. Bu çalğı alətləri artıq bağlama ailəsi olaraq, "cürə bağlama", "divan bağlama", "üç telli bağlama", "cüt telli bağlama" kimi təsnif edilir.

Bağlama adı ilə əlaqədar, bu anlayışın 1976, 1983 və 1989-cu illərdə ardıcıl olaraq İstanbul, İzmir və Qaziantəpdə təşkil edilən Türk Musiqisi Dövlət Konservatoriyalarının da təhsil sistemini bu istiqamətdə qurmaları, akademik və elmi sahələrdə qəbul olunmasını sürətləndirmişdir.

Beləliklə, bağlama - Asiyadan, Anadoluya qopuz adıyla Oğuz Türkmənləri tərəfindən gətirilmişdir. Qopuzdan bağlamaya qədər olan dəyişmələr Asiyada başlamasına baxmayaraq, ən köklü dəyişikliklər Anadoluda olmuşdur. Bağırsaq tellər yerinə mədəni telə keçid, dəri üzlük yerinə taxta qapaqlı sinə istehsalı, sap qisimindən pərdə bağlamaq, ənənəvi olaraq pentatonik səs sisteminə uyğun pərdə quruluşuna əlavə koma pərdələrinin bağlanmasıyla daha çox məqam əsaslı quruluşa keçid və əl ilə çalma əvəzinə təzənə ilə çalma formaları kimi dəyişmələr Anadoluda meydana gəlmişdir. Hər bir halda, bağlamada meydana gələn, yeni cizgilər və edilən dəyişmələr alətdə yeni cəhətlərin yaranmasına səbəb olmuşdur.

Dissertasiyanın **II fəsli - “Anadoluda bağlama növləri”** adlanır və üç bölmədən ibarətdir: 2.1.Bağlama növlərinin səciyyəsi; 2.2. Bağlamanın quruluşu və texniki imkanları; 2.3.Bağlamanın fərqli ifa və üslub xüsusiyyətləri (tavır) kimi məsələlərə həsr olunmuşdur.

Bu fəslin birinci bölməsində - **2.1. “Bağlama növlərinin səciyyəsi”** öyrənilir. Anadoluda bir çox ad, ölçü və forma altında bağlama növləri var. Anadolu coğrafiyasının fərqli hissələrində yaşayan birliklər, öz anlayışlarına görə fərqli adlarla bağlamanı yaşatmışlar və bağlama ilə yaşamışlar. Bu adlandırmalar, bağlamaların ölçüsünə, tel sayına, gövdəsinin formasına və tətbiq edildikləri sahəyə görə olur.

Anadoluda olduqca çoxmuş kimi görünən bağlama növləri araşdırıldığında, əslində bunların arasında çox fərqin olmadığı, orta və kiçik boy bağlamalar olaraq qruplaşdırıldıqları görünür. Qaynaqlara görə, bağlamanın ölçülərinə görə sıralanması bu şəkildədir:

Meydan sazı: meydanlarda və ümumi yerlərdə çalındığı üçün bu ad verilmişdir. Meydan sazına 12 tel bağlanır.

Divan sazı: meydan sazından bir az daha kiçikdir. Üçlü qruplar halında 9 teli vardır.

Çöğür: qədimdən istifadə edilən və divan sazına yaxın böyüklükdə olur, üzərinə 9 və ya 6 tel bağlanır və 15 pərdəsi vardır.

Bağlama: ən çox istifadə edilən xalq çalğı alətlərimizdəndir. Bu səbəblə bağlı olduğu ailəyə adını vermişdir. Tellər üçlü qruplar halında 6 və ya 9 sayda olur.

Bozuk: Bu çalğı aləti bağlamanın eynisidir.

Tanbura: Bağlamadan bir boy kiçik xalq çalğı alətidir.

Cura bağlama: Curadan böyük bağlama və tanburadan kiçik bir çalğı alətidir.

Cura: bağlama ailəsinin ən kiçik çalğı alətidir. Üç telli və 9 pərdəlidir. Boyu 55 sm-dir.

İkitelli: Anadoluda istifadə edilən ən qədim çalğı alətlərindəndir. Cura bağlama ölçüsündədir. İki teli vardır. Adının "Çiftetelli " oyunu ilə əlaqədar olduğu güman edilir.

İkitelli bağlamalar - qopuzdan bağlamaya qədər olan müddətdə qopuzun Anadoluya keçən ilk formasıdır. Bu tip bağlamaların Anadoluda hələ yaşaması onun nə qədər köklü bir çalğı aləti olduğunu göstərir. Bu gün Asiyada köklü və geniş şəkildə varlığını davam etdirən Türkmən ikitelli qopuz (dutar, dombra) ənənəsinin Anadoludakı əksidir. İkitelli bağlamanın ən kiçik ölçüsü Egeydə Təkə Bölgəsi olaraq tanınan və Burdur, Muğla, Dənizli kimi ellərin daxil olduğu bölgənin Yörük Türkmənlərində müşahidə olunur.

Kozağaç ikitellisi (curası) olaraq bilinən bağlamanın ölçüsü olduqca kiçikdir. Qısaca ikitelli də deyilir. Təknə boyu 18, 5 sm olub, iki alt və iki üst sıra olmaq üzrə dörd teli var. Düzən (akkord) forması isə ikitelliden üçtelliye keçid axtarışlarının izlərini nümayiş etdirir.

Taşeli platosunda Alevi Türkmənlər olan Taxtaçılarının mengilerini[2] müşayiət edən bağlama xüsusi bir bağlama formasıdır və adına "finfini", bəzən Taxtaçı curası da deyilir. Finfini adı da ölçüsünün kiçik olması, çox fərqli bir düzəndə çalınması və çıxan səslərin bir əks olunması (onomotepe) ilə fərqlənir. Ölçüləri belədir: təknə boyu - 19 sm; sap boyu - 29 sm; tel boyu - 43 sm. Sıra, qrup, tel sayı alt iki, orta tək və üst iki olmaq üzrə

[2] Taxtaçı mengilerinde dini məzmun yoxdur. Mövzusu eşq və sevgidir.

üç telli bir bağlamadır.

Bölgələrdə ikitelli bağlamaya Irızva, Ruzba, cura və eyni zamanda Alevi Dədələrinin da çalğıçı olması səbəbi ilə Dədə Sazı da deyilir. Bu bağlamalar ikitelli (iki sıra telli) və üçtelli (üç sıra telli) olmaq üzrə iki növ olur.

Qaziantəp bölgəsi Dədə sazlarındakı təknə forması, Maraş və Malatya, Qaziantəp, Adıyaman, Sivas, Tunceli, Erzincan, Kayseri, Elazığ kimi bölgələrdə istifadə olunur. a) Balta tipli təknə (çanaq forması). Bu təknə forması "balıksırtı" olaraq da tanınır. b) Armud tipli (armudu) təknə forması. Bu tip təknəli bağlamalar, digər balta təknəli bağlamalara nisbətən daha volümlü - gur və bas səs quruluşuna malikdir.

Üçtelli bağlama. 11-14 pərdəli olan üçtelli bağlama ölçüləri baxımından da, bağlama ailəsinin ən kiçik ölçülü növlərindəndir. Üçtelli bağlamanın düzən quruluşunda da olduqca müxtəliflik özünü göstərir.

Bağlamanın Respublika qurulduqdan sonra şəhərlərdə geniş yayılması və xüsusilə TRT-də yer verilməyə başlaması müəyyən tənzimləmələr zərurəti yaratmışdır. Bağlamalar ölçülərə ayrılmış və eyni akkordla, eyni tip çalma zəruriliyi gətirilmişdir. Səs və çalğı birliyindən yaranan bu xorda, bütün türkülər üçün səs baxımından hər kəsin uyğun gələ biləcəyi bir qərar (dayaq) səs tezliyi seçilmiş və bağlamalar başda olmaqla, akkordlar bu səsə görə qurulmuşdur.

II fəslin ikinci bölməsində - **2.2. “Bağlamanın quruluşu və texniki imkanları”** araşdırılmışdır. Bağlama ən ümumi mənada səs (rezonans) qutusu, buna bağlı sapdan (qol, klaviatura) ibarət olan çalğı alətidir. Üzərinə uzunluğu boyunca gərilən tellərin, səs qutusu içərisində titrəmə yaradaraq, meydana gətirdiyi səslərin sap üzərində pərdələr vasitəsilə incəlik və qalınlığın düzənlənir (tənzimlənir). Bağlama, ümumiyyətlə, xalq tərəfindən insan bədəninə və orqanlarına bənzədilərək adlandırılmışdır. Bu səbəbdən səs qutusuna "gövdə", üzərinə bağlanılan səs tablosuna "üz", sap qisminə "qol", sap ucuna "baş" və tellərin gərilib boşaldılmasını təmin edən burğulara da "qulaq" deyilmişdir.

Bağlamanın gövdəsi iki əhəmiyyətli ünsürdən meydana gəlmişdir: “təknə” deyilən içi oyulmuş ağac və üzərini bağlayan qapaq. Ağacdan hazırlanan bu iki ünsürün meydana gətirdiyi gövdə, bağlamanın səs qutusudur. Bu səbəbdən zil, bəm, mat, açıq səslərin əldə edilməsi gövdənin quruluşu ilə əlaqədardır. Sinə qapağı, digər bir deyişlə, səs taxtası - adından da aydın olduğu kimi, bağlamanın səsi baxımından çox əhəmiyyətli bir parçadır. Sinə qapağı üçün seçilən ağacın sərtliyi, damar quruluşu, qapağın incə və ya qalın olması, bağlamanın səs və rəng baxımından olduqca əhə-

miyyətli bir faktordur.

Tel bağlama takozu (arxa eşik, tukoz eşik): Təknənin arxa üzünün sinə qapağıyla birləşdiyi yerdə olan bu eşik (oyuq, dəlik), tellərin ilk bağlandığı yerdir. Bağlama neçə telli olaraq düşünülmüşsə o qədər tel bağlanacaq dəlik olmalıdır. Səs dəliyi - tellərdə başlayan titrəşmələrin orta eşik vasitəsilə qapağına, oradan səs qutusunun (təknə) içərisinə daxil olmasını və təkrar çölə çıxmasını məqsəd qoyan bir tətbiqdir.

Bağlamanın sap hissəsi - bağlamanın təməl ünsürlərindən biridir. Digər əhəmiyyətli hissə olan gövdə (səs qutusu) hissəsi səs çıxararkən, sap hissəsi çıxarılan bu səsləri melodiyaya çevirir. Bu mənada icranın ana ünsürüdür. Gövdə və sap hər vaxt ölçü nisbəti olaraq gövdəyə tutdurulma, ilişmə və ağac seçkisi olaraq birlikdə düşünülmüşdür.

Təknə boyuna görə sap boyunun nisbətdə olması da çox əhəmiyyətlidir. Anadolu xalqı yoxlama-seçmə üsulu ilə bağlamaya xas bir nisbət tapmış və çox təxmini nisbətlərlə bağlama hazırlamağa başlamışdır. Anadolunun hər yanında hazırlanan bağlamaların təknə və sap boyu nisbətləri bir-birinə çox yaxın ölçülərdə olduğu müşahidə edilir.

Pərdə - bağlamanın sapına bağlanan və səslərin incəlik qalınlığını düzənləyən və beləcə melodiya yaratmanı təmin edən ünsürdür. Pərdələr vasitəsilə yaradılan səs silsiləsi bölgə xalqının melodiyalarını hansı səs sisteminə görə hazırlanmasını göstərməsi baxımından olduqca əhəmiyyətlidir. Anadolu xalqı istifadə etdiyi melodiya qəliblərinə görə bağlamasına pərdə bağlamışdır. Bu səbəblə bölgələr arasında görünən melodik (ezgisel) fərqliliklərə və bağlamada meydana gəlmiş akkord (düzən) fərqliliklərinə bağlı olaraq fərqli sayda və fərqli düzülüşdə pərdə bağı olan bağlamalar olur. Ənənəvi quruluşdakı bağlamalarda 9-17 sayı arasında dəyişən pərdə bağı olarkən yaxın, zamanda dörddəbir səslərin də əlavə olunması ilə bu say 24-ə qədər çatmışdır.

Bağlamada düzənlər. Ümumiyyətlə, çalğı alətlərinin tellərinin bir uyğunlaşma şəklində incəlik və qalınlıqlarına görə nizamlanmasına akkord etmək və ya kökləmək deyilir. Ancaq, Türk xalqı bu termini mənimsəməmiş və öz çalğıları üçün düzən terminini istifadə etmişdir: düzən, nizam mənasında istifadə edilməkdə və təbii olaraq düzənə, nizam-intizama uyğunlaşdırılmış bir sazda akkordlanmış olur.

Türk xalqı, bu meydana gətirdiyi düzənlərə, özünə aydın ola bilən bir şəkildə adlar vermişdir. Bu adlandırmalara təməl olan faktlarda böyük fərqliliklər göstərməkdədir: a) Abdal, Avşar, Türkməni düzənləri kimi adını, aid olunan boy, soy, tayfa kimi birliklərdən alanlar; b) Çöğür, ruzba,

bağlama, kemençe və qaval kimi çalınan və ya çalınış olaraq bənzədilməyə çalışılan çalğı alətlərdən alanlar; c) Kütahya, Kayseri düzənləri kimi müəyyən bir yer adından alanlar; d) Hüdayda, misket düzənləri kimi adını çalınan melodiyadan alanlar; e) Segah, evic, hüseyni düzənləri kimi müəyyən makamlardan alanlar; f) Zeybek, mengi düzənləri kimi adlarını xalq oyunlarından alanlar.

| **Düzən adı** | **Alt tel** | **Orta tel** | **Üst tel** | **Qərar səsi** |
|---|---|---|---|---|
| Bağlama | lya | re | mi | mi |
| Bozuk | lya | re | sol | lya |
| Misget | lya | re | fa# | fa# |
| Müstezat1 | lya | do | sol | do |
| Müstezat2 | lya | re | fa | fa |
| Eviç | lya | si | sol | si |
| Abdal | lya | lya | sol | lya |
| Zeybek | lya | re | re | re |
| Hüseyni | lya | lya | mi | lya |
| Ümmi | lya | lya | re | re |
| Yeksani | lya | re | lya | lya |
| Kayseri | lya | mi | lya | lya |
| Segah | lya | re | si | si |
| Şur | lya | mi | si | lya |
| Türkməni | lya | mi | mi | mi |
| Acem aşaran | lya | lya | fa | fa |

Bəzən eyni akkorddan ibarət olan düzənlər, dəyişik bölgələrdə fərqli adlar da alır və bu vəziyyət gerçək mənada bağlamadakı düzən sayının təsbitində böyük qarışıqlıqlar və yanılmalar yarada bilir. Bir bölgədə misget olaraq bilinən bir düzən başqa bir bölgədə qərənfil adını almaqda, bozuk deyə bilinən bir düzən başqa bir bölgədə karadüzən, sazdüzəni kimi adlar ala bilməkdədir. Bu tip nümunələr çoxaldıla bilər.

Ümumiyyətlə, Anadoluda təsbit edilən düzən və adları bunlardır. Şübhəsiz unudulmuş, yalnız bir neçə melodiyanın çalına bildiyi bəzi xüsusi düzənlər də ola bilər.

Onların bəzilərinin dəyişik bölgələrdə fərqli adlar aldığı görünür və beləcə birdən çox adlarının olduğu da təsbitlər arasındadır.

II fəslin üçüncü bölməsində - **2.3. "Bağlamanın fərqli ifa və üslub xüsusiyyətləri (tavır)"** öyrənilmişdir. Bölgə musiqilərinə aid ümumi xarakter xüsusiyyətlərə - bölgə tavırları deyilir ki, bu da o bölgə musiqilərinin, ritm, motiv strukturlarına, bəzi bölgələrin xalq oyunu musiqi xarakterinə, bəzi bölgələrə xas xarakterik çalğı alətlərinin ifa formalarına görə səciyyələndirir. Məhz bölgə tavırlarını bağlamada əks etdirə bilmə hadisəsinə bağlamada tavırlar deyilir və bağlamada bu tavırlar mizrab və barmaq uyğunlaşmasıyla əks etdirilə bilir. Bu səbəblə bölgə tavırlarının bağlamada ifasına da o bölgələrin adları verilərək, bağlamada Konya tavırı, Yozgat tavırı və Zeybek tavırı deyilir.

Zeybek Tavırı: Anadolunun qərb bölgəsinə, ümumiyyətlə Egey bölgəsində oynanan xalq oyunlarına zeybek deyilməkdədir. Məhz bu zeybek oyunlarının sözlü və sözsüz melodiyalarının ifa formasına zeybek tavırı deyilir. Bu melodiyalar bağlamada çalınarkən müəyyən təzənə vurmaları və qəlibləri meydana gəlmişdir. Bir dördlük not vahidlərinin bağlamada altdan çırpma deyilən bir təzənə vuruşuyla çalınır və bu vuruşlar arasında, melodiyalara görə kiçik fərqliliklər öz əksini tapır.

Təkə Tavırı: Cənub-Qərbi Anadoluda iştirak edən və ümumiyyətlə Antaliya, Burdur, Muğla və İsparta kimi elləri əhatə edən bölgəyə Təkə bölgəsi deyilməkdədir. Bu bölgədə sıx olaraq oynanan Təkə Zortlatması deyilən xalq oyunu növü və melodiyaları var. Ritm olaraq 9/16-lık olan bu oyunların melodiyalarının da xüsusi bir təzənə vuruşuyla icrasına təkə tavırı deyilir.

Silifke Tavırı: Silifke, Aralıq dənizi sahilində tarixi və mədəni baxımından olduqca zəngin bir bölgədir. Kürəyini Orta Toros dağlarına söykəmiş şirin bir Aralıq dənizi mahalıdır. Silifke eyni zamanda Göksu vadisiylə Orta Anadoluya keçid qapısıdır. Silifke mədəni qaynağını, Gülnar, Mut və Silifke üçbucağında yer alan və Taşeli Platosu deyilən Toros Dağlarının ətəklərində yaşayan Yörük Türkmənlərin həyat formasından götürməkdədir. Bu səbəblə, Silifke tavırı yerinə Taşeli tavırı demək daha doğru olardı. Bu bölgə tavırı da bağlamada ümumiyyətlə bu təzənə vuruşlarıyla ifa edilir.

Konya Tavırı: İç Anadoluda yer alan Konya eli və yaxın ətrafında görünən və qaşıq oyunları olaraq qəbul edilən oyun və musiqilərinin icra formasına verilən addır. Konya oyunlarında imtiyaz yaradan ən böyük ünsür, oyunlardakı qaşıq vurmalarının ritmik quruluşudur. Bu qaşıq vurmalarının bağlama ifasındakı əks etdirilməsi ilə meydana gəlmiş və bölgənin usta bağlamaçısı Rıza Konyalının öncüllük etdiyi bir bağlama ifa formasına bağlamada Konya tavırı deyilir.

Yozgat Tavırı (sürməli): Yozgat türkülərinin söyləmə formasının, bağlamada əks etdirilməsindən yaranan bir tavırdır. Söyləmə formasındakı çıxan səslərin xüsusiyyəti, bağlamada ancaq trel edilərək əks etdirilir. Yalnız təzənə ilə trel etmək yetmir, sol əlin barmağı ilə də trele uyğun, ana səsin bir üst səsinə çarpma da atmaq lazımdır. Əgər barmaq çarpmasını yetişdirə bilməyən bağlama ifaçıları, birinci barmaqla ana səsə basarkən ikinci və ya üçüncü barmaqla bir üst səsdə yüngülcə bir tel qısdırmasıyla eyni duyğunu verə bilirlər.

Kayseri Tavrı: Kayseri tavrının bağlamada icrasındakı əsas xüsusiyyətlər, qısa daramalar, vahid vuruşların titrəyişli başlaması və sağ əlin təzənə vurarkən ellips şəklində çevrilərək vurulmasıdır.

Aşıqlama (deyişmə) Tavrı: Aşıqların, ozanların deyişmələrinin bağlama ilə icra formasına deyilir. Ən diqqətə çarpan xüsusiyyəti təzənənin aşağıdan yuxarıya doğru bütün tellərə vurulmasıdır.

Karadeniz Tavırı: Karadeniz bölgəsinin melodiyaları çoğunluğu ilə səciyyələnir, 7/8-lik ritmə uyğundur və bu ritmə uyuun təzənə vurmaları ilə bağlama çalınmasına, bağlama da Karadeniz tavırı deyilir. Bu tavırı gücləndirmək üçün bağlamada kamança düzəni deyilən bir düzən növü də vardır və onda icra edilərkən, Karadeniz tavırı daha müəyyən olmalıdır:

Azəri tavırı: Azərbaycan qaynaqlı, ümumiyyətlə 6/8 və 12/8-lik ritmlərdən ibarət olan melodiyaların bağlama ilə icrasında istifadə edilən təzənə vuruşlarıdır.

Beləliklə, tavır müəyyən bir bölgədə məskunlaşmış xalqın öz həyat və düşüncə formasının musiqi ifadəsidir. Bu səbəbdən, tavırın bağlama ilə icrasında qəti qaydalar yoxdur. Bir bölgə tavırının notla olaraq göstərilməsi də doğru deyil. Ancaq ümumi xətləriylə məlumat vermək olar. Bu səbəblə də, bağlamada tavır təhsilində yalnız notla izah etmək çatmadıqda, təhsil notla birlikdə usta çırak əlaqəsində icra edilməlidir.

**Dissertasiyanın III fəsli “Azərbaycan aşıq sazı və bağlamanın müqayisəsi” adlanır.** Bu fəsil iki bölmədən ibarətdir: 3.1. “Azərbaycan sazı ilə bağlama alətinin müqayisəli təhlili”; 3.2. “Bağlama və sazın Anadolu və Azərbaycanın ictimai həyatındakı rolu” kimi məsələlərə həsr olunmuşdur.

III fəslin birinci bölməsində - **3.1. “Azərbaycan sazı ilə bağlama alətinin müqayisəli tədqiqi”** verilir. Azərbaycan aşıq sazı və bağlama eyni kökdən çıxmış və bir-birinə çox bənzəyən türksoylu xalqların çalğı alətləridir. Qopuzdan törəmiş bu çalğı alətləri, təbiidir ki, Türk dünyasının fərqli coğrafiyalarında, fərqli qarşılıqlı təsirlərlə inkişaf etmiş və müəyyən özünəməxsus cəhətlərə malik olmuşlar.

Qopuzdan sonra ən məşhur adlardan olan saz adı, Anadoluda hələ də istifadə edilməsinə qarşı, yerini böyük nisbətdə bağlamaya buraxarkən, Azərbaycanda saz aləti varlığını qorumuşdur. Saz və bağlama, ozan-qopuz ənənəsini davam etdirən və xalq arasında hörmət edilən bir çalğı aləti olma xüsusiyyətlərini davam etdirmişlər. Saz və bağlamanın hissələrinə müqayisəli tərzdə nəzər salaq.

Anadoluda "bölüm", Azərbaycanda isə "hissə" deyilən qisimlərin adları bu şəkildədir. Bağlama və sazın əsas (ana) hissələrindən olan gövdə qisminə Anadoluda "təknə", Azərbaycanda isə "çanaq" deyilir. Təknənin üzünün örtüldüyü, qapandığı hissə isə Azərbaycanda "sinə", "üz", Anadoluda isə "göğüs" və ya "kapak" ("qapaq") adlandırılır.

Bağlamanın təknəsində iştirak edən iki ədəd yeşiyin adları da Azərbaycan türkcəsində fərqli şəkildədir. Anadolu türkcəsindəki alt eşik (tel taxma takozu-darağı) Azərbaycan dilində telgir, dal daraq, tel bağı olaraq adlandırılmışdır. Sinə qapağında yer alan körpü eşik isə sinə xərək adlandırılır.

Tel, pərdə adları ortaq istifadə edilən adlardır. Pərdələrin bağlandığı bölümə (hissəyə), Azərbaycan türkcəsində qol (kol) deyilirsə, Anadoluda isə qol adına əlavə olaraq, sap da istifadə olunur. Bağlamanın sapında tellərin son olaraq keçdiyi üst eşik isə Azərbaycan dilində qol xərək olaraq adlandırılmışdır.

Anadolu türkcəsində akkord alınması üçün telləri gərən və ya boşaldan burğulara (qulaq) Azərbaycanda aşıq və ya burmac deyilir. Burmaq sözü Anadolu türkcəsində də qıvırmaq, çevirmək mənasında olduğundan, burma işini icra edən alətə də burmac deyilməsi çox yerində tətbiq olunub, Anadolu türkcəsinə də uyğun bir ifadədir.

Bağlama və sazı çalmağa yarayan, əvvəllər ağac qabığından olan, sonralar isə plastik maddədən düzəldilən 2-3 sm-lik kiçik alətə təzənə deyilir. Anadoluda təzənə ilə yanaşı, mizrab sözü də istifadə olunur.

Bağlama və saz istehsalında istifadə edilən ağac növlərinə nəzər saldıqda, onların arasındakı müxtəliflik nəzərə çarpır. Azərbaycan sazının çanağı və çanaq qapağı (sinə) ümumiyyətlə eyni ağacdan düzəldilir və tut ağacından istifadə olunur. Sap və burğularda isə qoz ağacından istifadə edilir. Ancaq çanağın da qoz ağacından düzəldilməsi mümkündür. Bağlama təknəsində də ən çox seçilən ağac tut ağacı olmaqla birlikdə ardıç, şabalıd, gürgen kimi ağaclar da istifadə edilir. Bağlama sinəsi (üz, qapaq) üçün isə ümumiyyətlə təknədən fərqli və yumşaq cinsli ağaclar seçilir. Bunlar isə ladin və köknar ağacı olmalıdır. Sap qisimində isə əksəriyyətlə seçilən ağac sarı və akgürgendir.

Bağlama təknəsi son əsrə qədər ağac kötüyünü oyaraq düzəldilirdi, bu şəklə də oyma bağlama deyilirdi. Ancaq yaxın zamanlarda ağac kötüyü lentlər şəklində kəsilərək və bunların bir-birinə əlavə olunması nəticəsində ortaya çıxan təknəyə yarpaq təknə, bağlamaya da yarpaq bağlama deyilir. Azərbaycanda isə alətin bu cür hazırlanması texnikası daha köhnə tarixlərə söykənərək, qabırğalı saz adı almışdır. Ümumiyyətlə bu qabırğa deyilən dilim sayı 9 ədəddir.

Bağlamaların inci, sədəf kimi maddələrlə bəzənməsinə, Anadoluda bəzəkli və ya işləməli bağlama, Azərbaycanda isə "Şirrmayi sazlar", digər sazbəndlər isə bəzən "Naxışlı sazlar", hətta "Bəzəkli sazlar" da deyirlər.

Bağlama və saz tellərinin (simlərinin) qruplarına və ənənəvi adlarına nəzər salaq. Bağlama və saz üç qrup sıra teldən (simdən) ibarət olan çalğı alətləridir. Azərbaycan sazında hər qrup sıra siminin xüsusi bir adı var.

Azərbaycan aşıq sazları hər qrupda 3 olmaq üzrə 9 simlidir və bu qrupların adları bu şəkildədir:

1-ci qrup simlər: - "Zəng simlər - zil simlər ", "Əlaltı simlər".

2-ci qrup simlər: - "Dəm simlər".

3-cü qrup simlər: - "Bəm simlər".

Bağlamada isə tel qruplarında 1 ədəd teldən 3 ədəd telə qədər ola bilməklə və cəmi tel sayı da 3-dən 9-a qədər çıxır. Bu qrup tellərin də xüsusi bir adı olmayıb, bu şəkildə göstərilir.

1-ci qrup tellər: - "Alt tellər".

2-ci qrup tellər: - "Orta tellər".

3-cü qrup tellər: - "Üst tellər".

Bağlama və sazların ölçüləri. Azərbaycanda və Anadoluda sazlar ölçülərinə və forma quruluşuna görə əsasən üç qrupa ayrılırlar. Bu qrupların da özünə xas fərqli adları vardır. Onlar bu şəkildə göstərilir:

A. Böyük ölçülü olanlar: Azərbaycanda "Ana saz", Anadoluda "Meydan sazı", "Divan sazı".

B. Orta ölçülü olanlar: Azərbaycanda "Tavar saz", "Qoltuq saz", Anadoluda "Bağlama", "Tanbura".

C. Kiçik ölçülü olanlar: Azərbaycanda "Cürə saz", Anadoluda "Cura bağlama", "Cura".

Sazı yağış, qar, isti kimi xarici təsirlərdən qorumaq üçün bez və ya dəri maddələrdən hazırlanmış və sazın içinə qoyulduğu xüsusi torbaya Azərbaycanda "Sazın köynəyi", "Sazın torbası", Anadoluda "Örtük" deyilir.

Bağlama və sazın pərdə quruluşunda da fərqli cəhətlər özünü göstərir. Məlum olduğu kimi, bağlamanın və sazın qol hissəsinə bağlanan pər-

dələr istifadə edilən səsləri göstərir. Bu səbəblə bir çalğının pərdə sistemi, o musiqi növünün səs sistemi deməkdir. Pərdə quruluşu melodiyanı meydana gətirmək üçün lazımlı səsləri nizamlamaqdadır.

Bağlama və sazda pərdələr ilk zamanlar bağırsaq tirdən hazırlanmış, daha sonralar ipəkdən, son mərhələdə isə plastik maddə olan misinə deyilən ipdən düzəldilməyə başlanmışdır. Misinəyə Azərbaycanda kapron ip deyilir. Ayrıca Azərbaycanda polad pərdə istifadə edilməyə başlamışdır.

Azərbaycan aşıq sazlarında olan bütün pərdələrin özünə xas adları var. Ancaq bağlamalarda pərdə adı istifadə etmə ənənəsi yoxdur. Əvvəllər olsa belə, indi tamamilə unudulmuş və istifadə edilmir.

İstisna olaraq, şiə-Bektaşi ənənəsində çalınan və “dede sazı” deyilən bağlamalarda, qərar qılınan (əsas istinad olunan) pərdə “Şah pərdəsi” və ya “İmam pərdəsi”, istifadə edilməyən və ya ən az istifadə edilən pərdə “Kar pərdə” adlandırılır. Bu bağlamalarda 12 İmam inancına işarələr şəklində də ümumiyyətlə 12 pərdə istifadə edildiyi təsbit edilmişdir.

Azərbaycan aşıq sazının pərdə sistemi. Saz pərdələri bağlandıqları hissələrlə əlaqədar olaraq üç ana qrupda toplanırlar:

1. "Boğma pərdə"- "Tel pərdə": Bu pərdələr üst eşiyin (qol xərək) arxasında, yəni burğular hissəsində olub, simlərin dağılmadan düz bir şəkildə burğulara getməsini təmin etmək məqsədiylə bağlanmış pərdələrdir.

2. "Qol pərdələr": Xromatik səs silsiləsinə görə sazın qol hissəsində bağlanmış pərdələrin sayı 12-dir.

3. "Örtük pərdələr (sinə pərdələr)": Bu pərdələr sazın qol ilə sinənin birləşdiyi yerdən etibarən sinə üstünə kiçik mismarlarla çaxılıb bağlanmış pərdələrdir. Buna görə sinə pərdə də deyilir.

Sazın pərdələri funksiyalarına görə də iki ana qrupda toplanırlar. Bunlar əsas və köməkçi pərdələrdir. Əsas pərdələr 7 ədəd, köməkçi pərdələr də 6 ədəddir.

Əsas pərdələrin ənənəvi adları bu şəkildədir: 1."Baş pərdə"- "Baş divani pərdə"; 2."Orta pərdə"; 3."Şah pərdə"; 4."Ayaq divani pərdə"; 5."Bayatı pərdə"; 6."Ayaq şah pərdə"-"Kök pərdə"; 7."Beçə pərdə".

İkinci dərəcəli əhəmiyyət təşkil edən 6 ədəd köməkçi pərdələr isə fərqli adlar alır və beləcə 15 ad təsbit edilir. Bu adlar aşağıdakı şəkildədir: 1."Bayramı pərdə"; 2."Gül pərdə"; 3."Misri pərdə"; 4."Yarım pərdə"; 5."Köməkçi pərdə"; 6."Şegahi pərdə"; 7."Şikəstə pərdə"; 8."Kor pərdə"; 9."Səğir pərdə"; 10."Tifil pərdə"; 11."Yetim pərdə"; 12."Yastı pərdə"; 13."Yaslı pərdə"; 14."Səfil pərdə"; 15."Lal pərdə".

Azərbaycan aşıq sazında və Anadolu bağlamasında ənənəvi olaraq komalı səslər istifadə edilməyərək, ¼ nisbətində olan dörddəbir səslər də sonradan əlavə edilmiş və bu pərdələr sonradan bağlanmışdır.

Bağlamada akkord quruluşu üçün Anadoluda "düzen" (nizam mənasında) adı istifadə edilərkən, Azərbaycanda buna kökləmək deyilir. Azərbaycan aşıqlıq ənənəsində də, bağlamada olduğu kimi, kökləmək məsələsi çox əhəmiyyətlidir.

Azərbaycan aşıq sazının kökləri. Azərbaycan sazındakı akkord sistemi, sazın üzərində olan pərdələrin sırası və aşıqların bu pərdələrə verdikləri adlarla özünü göstərir. Bu akkordlar sazda olan 7 ana pərdəyə görə meydana gəlir və o adları götürür. Bu səbəblə 7 ayrı akkord növü var.

1. Baş pərdə kökü - Alt qrup simlər "do" səsinə; Orta qrup simlərin ilk ikisi "re", digəri bir oktava aşağı "re" səsinə; Üst qrup simlər "si-bemol" səsinə nizamlanaraq yaranan bir kökdür (akkorddur).

2. Orta pərdə kökü - Alt qrup simlər "do" səsinə; Orta qrup simlərdən ilk ikisi "mi-bemol", üçüncü sim isə "lya-bemol" səsinə; Üst qrup simlər "si-bemol" səsinə nizamlanaraq meydana gəlir.

3. Ümumi kök - Alt qrup simlər "do" səsinə; Orta qrup simlər "fa" səsinə; Üst qrup simlər isə "si-bemol" səsinə nizamlanaraq əmələ gəlir.

Bu akkordun, bağlamadakı kara düzen (bozuk) ilə eyni olaraq istifadə edildiyi, adının da ümumi olmasını göstərmək lazımdır. Anadoluda da kara (bozuk) düzenin, iki ana düzəndən biri olması və çox geniş şəkildə istifadə edilməsi, mədəniyyətlər arası əlaqələrin nə qədər güclü olduğunun bir göstəricisidir.

4. Ayaq Divanı kökü - Alt qrup simlər "do" səsinə; Orta qrup simlərdən ilk ikisi "do", üçüncü sim "sol" səsinə; Üst qrup simlər "si-bemol" səsinə nizamlanır.

5. Bayatı kökü - Alt qrup simlər "do" səsinə; Orta qrup simlər "lya-bemol" səsinə; Üst qrup simlər "si-bemol" səsinə nizamlanır.

6. Sadə kök. Digər bir adı da "Ayaq Şah pərdə kökü" olan bu akkord aşağıdakı şəkildədir: Birinci qrup simlər "do" səsinə; Orta və üst qrup simlərin hamısı da "si-bemol" səsinə köklənir.

7. Bayramı kökü - Alt qrup simlər "do" səsinə; Orta qrup simlərdən ikisi "do", digəri bir oktava aşağı "do" səsinə; Üst qrup simlər isə "si-bemol" səsinə köklənir.

Bu akkordların xaricində yalnız mərhum Aşıq Gülməmmədovun icrasında rast gəlinən bir akkord daha təsbit edilmişdir[3] və bağlamadakı Misget düzeni ilə eyni olub, bu şəkildədir: Alt qrup simlər "do" səsinə; Orta qrup simlər "fa" səsinə; Üst qrup simlər "mi" səsinə köklənərək əldə edilən bir akkorddur.

Bu akkordlar araşdırıldıqda bağlama ilə sazın eyni mədəniyyət ənənəsinə sahib olduğu aydınlaşır. Hər iki çalğı alətinin köklərində də, iki telli qopuzda olan 4-lü və 5-li aralıqların – pərdələr arası məsafələrin hakim olduğu görünür. Üç qrup simli də olsa, qrup simlərdən biri dəm simi vəziyyətinə gətirildiyi zaman, əsas olaraq iki simli qopuzdakı təməl anlayışı ortaya çıxır.

Bütün bunlar göstərir ki, bağlama və saz eyni kökdən gələn, eyni ənənəni davam etdirən, Azərbaycan və Türkiyə xalqlarının əsas çalğı alətləridir.

III fəslin ikinci bölməsində - **3.2. "Bağlama və sazın Anadolu və Azərbaycanın ictimai həyatındakı rolu"** araşdırılır.

Bağlama - Anadolu türk xalqının telli-təzənəli xalq çalğı alətlərinə verdiyi ümumi bir addır. Bağlama Anadolu türk xalqının yaranmasından bu günə qədər imtina edə bilmədiyi bir xalq çalğı aləti olmuşdur və yalnız çalğı aləti olmaqla kifayətlənməyərək, düşüncə formasını, fəlsəfəsini əks etdirən bir simvol əhəmiyyəti kəsb etnişdir. Anadolu türk xalqının sevincini, kədərini, üsyanını, həsrətlərini düşüncə tərzini əks etdirən türk xalq musiqisini tək bir çalğı aləti ilə izah etmək zərurəti meydana gələrsə, bu çalğı aləti, şübhəsiz bağlama olardı.

Bağlamanı Anadolu türk xalqı üçün bu qədər əhəmiyyətli edən səbəblər araşdırıldığında - Türk cəmiyyətinin Asiyadan Anadoluya köçləri müddətindən və Anadoluda həyat boyu yaşadıqları mədəni, siyasi, ictimai və etnik mübarizələri və bu mübarizələrində də bağlamanı necə bayraq kimi yüksəyə qaldırdıqları görünür. Xüsusilə mədəni və inanc sahəsindəki meydana gələn, bağlamanın Anadolu türk cəmiyyətindəki əhəmiyyətini artıran faktorlar olmuş və bəlkə də bağlamanın bu müddət içərisində yox olub getməsinə maneə törətmişdir.

Qopuzun Anadoluda bağlama olana qədər olan tarixi müddətində, bütün bu təsirlərə baxmayaraq, xalqın qəlbində həyatını və inkişafını davam etdirməsi və Anadolu türk mədəniyyətinin bir simvolu halına gələrkən, Azərbaycanda hansı dövrlər yaşandığı araşdırılmalıdır.

[3] Abdullayeva S. Azərbaycanın xalq çalğı alətləri. Bakı, 2000.

Sazın Azərbaycanın ictimai həyatındakı rolu önəmlidir. Azərbaycan, min illik tarixi olan Şərq aləminin və Türk dünyasının kəsişmə nöqtəsində iştirak edən bir ölkədir. Türk dünyasının ortaq ənənəsi olan ozanlıq və aşıqlıq ənənəsi də bütün ehtişamıyla Azərbaycanda vardır və davam etməkdədir.

Azərbaycanda çox əhəmiyyətli yer tutan aşıqlıq ənənəsində əsas çalğı aləti, təbii olaraq, saz olmuşdur. Bu əhəmiyyəti ifadə etmək üçün, çox vaxt yalnız saz yerinə aşıq sazı adı geniş şəkildə istifadə edilir. Azərbaycan xalq melodiyalarının günümüzə qədər gəlməsində və bilinməsində, aşıqların və onların sazının əhəmiyyəti çox böyük olmuşdur.

Azərbaycanın ictimai və siyasi tarixinin musiqiyə mühüm təsiri olmuşdur. Məlum olduğu kimi, Azərbaycan, strateji mövqeyi lazımınca davamlı zəbtlərə uğramış və bir tərəfdən o bölgə üçün çox təsirli və güclü fars mədəniyyəti, digər tərəfdən, rus və türk dünyası mədəniyyəti altında çox rəngarəng və zəngin mədəni mühitə malikdir. Azərbaycan bu mühitlərdə bəlkə də Anadoludan daha güclü və köklü Türk ozanlıq və aşıqlıq ənənəsini yaşamış və yaşatmış bir ölkə olmuşdur.

Azərbaycan son əsr ərzində musiqi sahəsində çox böyük mərhələlərdən keçmiş və dünya klassikləri ilə bir sırada dayana biləcək əsərlər yaranmışdır. Azərbaycanın mərkəz şəhərlərində elmi, mədəniyyəti və sənəti anlayan bir çox oxumuş, təhsilli nəsil meydana gəlmişdir. Bu təhsilli sənət seqmentinin meydana gətirdiyi musiqi də xalq aşıq musiqisinə və Şərq muğamlarına əsaslanaraq, qərb texnikası ilə işlənmiş, müasir Azərbaycan musiqisi olaraq qəbul edilmiş və bütün dünyaya təqdim edilmişdir.

Beləliklə, eyni kökdən və ənənədən gələn bağlama və saz, müxtəlif təsirlər altında inkişaf etsələr belə, özlüyündə böyük bir bənzərliyə malik iki Türk xalq çalğı alətləridir.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur, əldə olunan elmi müddəalar qeyd olunur:

1. Bağlama, Anadoluya türklərlə birlikdə gəlmiş və bütün Anadolunun simvolu vəziyyətinə çatmış bir çalğı aləti olmuşdur. Türk mədəniyyət məhsulu olan bağlama, Anadoluda keçirdiyi dəyişmə və çevrilmələrlə, Anadoluda olan bütün etnik qrupların, birliklərin də özlərini ifadə etdikləri və mənimsədikləri bir çalğı aləti mövqeyinə gəlmişdir.

2. Bağlama, Asiyadan Anadoluya köç edən Türk tayfalarının mədəni şəxsiyyətlərini qorumada çox əhəmiyyətli bir vasitə olmuşdur. Köç müddətində və Anadoludakı var olma mübarizələrindəki siyasi, dini və mədəni faktorlar nəticəsində bir şəxsiyyət və müqavimət simvolu vəziyyətinə gəlmişdir. İslami inancın Türkmən şərhi də sayıla biləcək şiə-Bektaşi

inanc və düşüncə sisteminin başlıca ibadət vasitəsi də bağlama olmuşdur. Bu səbəblə də bu inanc və düşüncə sistemini mənimsəyən başqa etnik qruplarda da bağlama ən fundamental çalğı vəziyyətindədir.

3. Qopuzdan bağlamaya qədər olan mərhələlər və dəyişmələr Asiyada başlamasına baxmayaraq, ən əsaslı dəyişmələr Anadoluda meydana gəlmişdir. Qopuz təktelli vəziyyətdən ikitelli vəziyyətə gəldiyində fərqli adlar da almağa başlamışdır. At tükündən olan tellər bağırsaq və ipəkdən düzəldilməyə başlamış, dəridən olan sinə qisimi ağacdan düzəldilməyə başlandıqdan sonra da mədəni tellərə keçilmişdir. Sapa pərdə bağlanmış və üçtelli vəziyyətə gəlmişdir. Əl ilə çalma yerini təzənə deyilən, əvvəllər ağac qabığından və daha sonralar isə plastik maddələrdən hazırlanan bir alətlə çalma dövrü başlamışdır. Şəhər mərkəzlərində də qəbul olunmağa başladığı son 50 ildə böyük sayıla biləcək forma dəyişikliyinə uğramışdır.

4. Bağlama, Anadoluda tel sayına, təknə formasına, çalındığı mühitə və düzənə (köklənmə quruluşuna), ölçülərinə və Asiyadan Anadoluya Türkmənlərin yaddaşında daşıdığı adlara görə çox müxtəlif adlar almışdır. Anadolu xalqı, qopuzdan bağlamaya ilk dəyişmə mərhələlərindən olan ikitelli quruluşunu hələ qorumaqda və yaşatmaqdadır. Üçsimli quruluşa malik olan bağlama, Anadoluda olduqca zəngin bir ahəngdar akkord sistemi əldə etmişdir.

5. Anadoluda bağlama aləti çalğı texnikası baxımından da olduqca zəngin ənənələr qazanmışdır. Anadoluda köklü Türk mədəniyyəti ilə yanaşı, mövcud olan digər mədəniyyətlərin sintezi sayəsində müxtəlif bölgələrdə fərqli ifa tərzləri, fərqli üslublar meydana gəlmişdir ki, bunlar da sonradan yerli xüsusiyyətlərə çevrilmişdir. Bu kimi cəhətlər bağlamanın ifa tərzində öz əksini tapır. Hər yerli ifa tərzində, bağlamada fərqli təzənə vurma qəlibləri vardır ki, məhz həmin üsulla təzənə vurmaqla çalğı tərzi əsas sayılır.

6. Bağlama, Türk coğrafiyasında istifadə edilən dombra, dütar kimi musiqi alətləri ilə bərabər, Azərbaycan aşıq sazıyla da çox böyük bənzərliklərə, ortaq xüsusiyyətlərə malikdir. Asiya Türk xalqları, əcdadı qopuz olan bu çalğı alətlərini, öz bölgəsində inkişaf etdirərkən, bağlama Asiyadan gətirdiyi xüsusiyyətlərə, Anadoluda digər mədəniyyətlərlə qaynayıb-qarışaraq, bu baxımdan yeni xüsusiyyətlər də əlavə etmişdir. Bu baxımdan alət həm ahəng (akkord), həm çalğı texnikasına görə olduqca zəngin və mükəmməl bir quruluş əldə etmişdir. Bu səbəblə bağlamanı, bütün türk dünyasında qopuzun ən inkişaf etmiş simli, saplı və təzənəli forması hesab etmək olar.

Bağlama bu quruluşu ilə, başda Azərbaycan olmaqla, bütün Türk coğrafiyasında musiqi təhsili sistemində yer almalıdır. Bu da, keçmiş dövrlərdən bu günə kimi yaşadılan mədəni birliyin daha da inkişafına təkan verəcək və son nəticədə, ortaq davranış qaydalarını meydana gətirəcək. Bu ortaqlığın Türk coğrafiyasının siyasi həyatında nə qədər böyük yer tutması və bunun bütün dünyada öz əksini tapacağı şübhəsizdir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Türk Halk Müziğinde Makam-Ayak-Dizi ve Akort Sorunları. / "Çukurova üniversitesi-1992
2. Anadolu türklərində bağlama alətinin rolu və əhəmiyyəti. // "İncəsənət və Mədəniyyətin aktual problemləri". N 4, Bakı, 2009, s. 100-103
3. Silifke Yöresi Oyun Müzikleri ve Tahtacı Mengileri. / "25.Dünya Dans Araştırmaları,4. İstanbul Uluslar arası Dans Kongresi, 07/04/2009-İstanbul
4. Bağlamada düzən kavramı və düzənlər. // "Konservatoriya" (elmi nəşr). № 2 (8), Bakı, 2010, s. 36-44
5. Bağlamanın Tarihi ve Anadolu'daki Değişimi. / "Türk Dünyası Xalq Çalgı Alətləri Simpoziumu. Baku, 2010
6. Türk bağlama alətinin quruluş xüsusiyyətləri. // "Konservatoriya" (elmi nəşr). № 3, Bakı, 2011, s. 14-18
7. Bağlamaya Tarihsel Kültürel Sosyal ve Siyasal Açıdan Bakış. / "Uluslar arası Malatya Türk Halk Müziği Sempozyumu-Malatya, 2011
8. Belgelerle Gaziantep Yöresi Türk Halk Müziği Kültürü. // " Belgelerle Gaziantep, T.C. Kalkınma Bakanlığı Güneydoğu Anadolu Projesi Bölge Kalkınma İdaresi Başkanlığı, Gaziantep/ Türkiye, 2012, s.299-314
9. Belgelerle Kilis Yöresi Türk Halk Müziği Kültürü. // "Belgelerle Kilis, T.C. Kalkınma Bakanlığı Güneydoğu Anadolu Projesi Bölge Kalkınma İdaresi Başkanlığı, Kilis/ Türkiye, 2012, s.275-289
10. Tahtacı Mengi Bağlaması (finfini). / I Uluslararası Müzik Araştırmaları Sempozyumu "Müzik ve Kültürel Doku", K.T.Ü. Devlet Konservatuvarı, Trabzon, 16/10/2012
11. Türk musiqisində bağlama aləti. // "Təsviri və dekorativ-tətbiqi sənət məsələləri". № 1 (11), Bakı, 2013

**Али Мехмет оглу Дагистан**

# ТУРЕЦКИЙ БАГЛАМА В РЯДУ СХОДНЫХ ОДНОТИПНЫХ МУЗЫКАЛЬНЫХ ИНСТРУМЕНТОВ

## РЕЗЮМЕ

Диссертация посвящена изучению музыкального инструмента баглама, широко распространенного в Турции, его историческому развитию в контексте политических, религиозных и культурных событий. Раскрывается его роль и значение в духовной жизни народа. Дается характеристика разновидностей инструмента, структурных и исполнительских особенностей.

Диссертация состоит из введения, 3-х глав, заключения и библиографии.

**В I главе диссертации – «История багламы и эволюционный путь от копуза до баглама» -** дается исторический обзор возникновения и развития струнно-щипковых музыкальных инструментов, начиная от копуз до баглама и других родственных инструментов, как дутар, танбур, саз распространенных у туркоязычных народов и, в частности, в Анатолийском регионе Турции.

**II глава – «Разновидности багламы в Анатолии»** - состоит из трех разделов: **2.1.** «Характеристика разновидностей багламы»; **2.2**. «Строение и технические возможности багламы»; **2.3**. «Исполнительские и стилистические особенности игры на баглама (тавыр)».

**III глава - «Сравнительное изучение азербайджанского ашыгского саза и багламы»** - состоит из двух разделов: **3.1.** «Сравнительный анализ особенностей багламы и саза»; **3.2.** «Роль багламы и саза в общественной жизни Анатолии и Азербайджана».

В заключении даются выводы и обобщения проведенного музыкально-органологического анализа.

**Ali Mehmet Dagistan**

## TURKISH BAGLAMA IN A SERIES OF HORIZONTAL SIMILAR MUSICAL INSTRUMENTS

### SUMMARY

The dissertation is devoted to the studying of musical instrument baglama, which is widespread in Turkey, its historical development in the context of political, religious and cultural events. Reveals its role and importance in the spiritual life of the people. The characteristic species of the instrument and performing structural features is given.

The dissertation consists of introduction, 3 chapters, the conclusion and the bibliography.

In the **I chapter of the dissertation - "The History of Musical Instrument baglama and evolutionary path from gopuz to baglama"** – is given a historical overview of the emergence and development of stringed plucked musical instrument, from gopuz to baglama and other related instruments like dutar, tanbur, saz common among Turkish-speaking peoples, and in particular in the Anatolian region of Turkey.

**The II chapter - "Variety of baglama in Anatolia" -** consists of three sections: **2.1.** "Characteristics of the species of baglama" **2.2**. "The structure and technical capabilities of baglama" **2.3.** "Performing and stylistic features of playing on baglama (tavyr)."

**The III chapter - "Comparison of the Azerbaijani ashig saz and baglama" -** consists of two sections: **3.1.** "A comparative analysis of the characteristics of baglama and saz", **3.2.** "The role of baglama and saz in public life of Anatolia and Azerbaijan."

In conclusion is given inference and generalisations of musical-organological analysis.

Чапа имзаланыб: 12.04.2013.
Формат: 60х84 1/16. Тираж: 100

**“Мцтяръим” Няшриййат-Полиграфийа Мяркязи**
Бакы, Рясул Рза кцч., 125
Тел./факс 596 21 44
*е-маил: мутаржим@маил.ру*

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ
им.УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**АЛИ МЕХМЕТ оглу ДАГИСТАН**

# ТУРЕЦКИЙ БАГЛАМА В РЯДУ СХОДНЫХ ОДНОТИПНЫХ МУЗЫКАЛЬНЫХ ИНСТРУМЕНТОВ

6213.01 – Музыкальное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**БАКУ - 2013**